**Xalq qəzeti**. - 2022.- 16 noyabr. - № 249. - S. 7.

# HEYDƏR ƏLİYEV YOLUNUN AVANQARD SİYASİ QÜVVƏSİ

## Yeni Azərbaycan Partiyası – 30

**Mixail Zabelin**,
YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı

**Müstəqil Azərbaycan dövlətinin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası 30 il əvvəl dövlətçiliyimizin bərpasının ilk vaxtlarında – ölkənin çətin, mürəkkəb vəziyyətdə olduğu günlərində yaranmışdır.**

Belə bir partiyanın siyasi meydana çıxmasını o zamankı qeyri-sabit ictimai-siyasi şərait, iqtisadiyyatın dagılması, xaos və özbaşınalıq, Qarabagda hərbi uğursuzluq, Azərbaycanın şimal və cənub sərhədlərində təşkil edilən sepatratçılıq oyunları, bütövlükdə, yeni qazanılmış müstəqilliyin və ölkənin ərazi bütövlüyünün qoruyub saxlanması kimi taleyüklü vəzifələr tələb edirdi. Azərbaycan xalqı qəti olaraq anlayırdı ki, respublikanı bu ağır vəziyyətdən xilas edə biləcək yeganə lider Heydər Əliyevdir.

Yeni Azərbaycan Partiyası Azərbaycan ölkənin ciddi sınaqlara məruz qaldığı belə bir dövrdə ölkə ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yarandı. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi və böyük təcrübəyə malik Heydər Əliyevə müraciət göndərildi. Ümummilli lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi.

Ulu öndər Heydər Əliyev ölkə ziyalılarının xalqın adından ona ünvanlanmış müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyət maneələr yaratdığından 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Yeni təşkilatın proqram və nizamnaməsi qəbul edildi, Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri də seçildi.

Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Həmin tarixi hadisələri dəyərləndirən ulu öndər Heydər Əliyev sonralar deyirdi: “Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır”.

YAP müxalif partiya olaraq yaransa da 1993-cü il oktyabr ayının 3-də YAP-ın sədri Heydər Əliyevin prezident seçilməsi və 1995-ci ilin noyabr ayının 12-də Milli Məclisə seçilən deputatların əksəriyyətinin Yeni Azərbaycan Partiyasının üzvləri olması ilə iqtidar partiyasına çevrilmiş, ona olan ümumxalq inamı bir daha təsdiq edilmişdir. Qısa zaman çərçivəsində xalqı ətrafına toplayaraq iqtidar partiyasına çevilən YAP, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqləmiş və Azərbaycanın müstəqilliyinin təminatçısı kimi özünü doğrultmuşdur. Milyonların dəstəklədiyi və arxasınca inamla addımladığı iqtidar partiyası illərin sınağından cəsarətlə çıxaraq, öz qüdrəti ilə fərqlənərək qarşıya qoyulan məqsəd və amal uğrunda inamla mübarizə aparmışdır.

Yarandığı gündən Yeni Azərbaycan Partiyasının məramı dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaradılmasından ibarət olmuş və partiyamız 30 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərmişdir. Partiya bütün məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanmış, xalqımızın arzularının ifadəçisi kimi çıxış etmişdir. YAP iqtidar partiyası olaraq, Heydər Əliyev siyasətinin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini vermişdir.

2003-cü ilin oktyabr ayının 15-də keçirilən Prezident seçkilərində YAP Sədrinin birinci müavini İlham Əliyev Azərbaycan Respublikasının -Prezidenti seçilmiş, 2005-ci ilin mart ayının 26-da keçirilən Yeni Azərbaycan Partiyasının III Qurultayında isə yekdilliklə partiyanın Sədri seçilmişdir.

Bu gün ulu öndər Heydər Əliyevin siyasi kursu Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezidentin rəhbərliyi ilə ölkəmiz uğurla inkişaf edir. Son illərin statistikasına və siyasi xronikasına baxmaq kifayətdir ki, Azərbaycan Respublikasının uğurlu inkişaf mənzərəsi hər kəsin gözü önündə canlansın.

Azərbaycanın beynəlxalq aləmdə olan nüfuzunun durmadan artması, daxili və xarici siyasətin ən nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməsi ümummilli liderimiz Heydər Əliyevin idarəçilik kursunun dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsinin nəticəsidir. İndi Azərbaycan dünya birliyini maraqlandıran ən qlobal layihələrin təşəbbüskarı, iştirakçısı və müəllifidir. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihənin icrası mümkün deyil.

Ölkəmizin müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına müstəsna töhfələr vermiş Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin olunması partiyanın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi, siyasi və diplomatik sahələrdə uğurlu fəaliyyətin həyata keçirilməsi,

xalq – iqtidar birliyi 30 ilə yaxın müddətdə düşmənin işğalı altında qalan tarixi torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Qüdrətli Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlar apararaq 44 gün ərzində Ermənistanın silahlı qüvvələrini darmadağın etməsi, düşmənin məğlub olaraq qarşımızda diz çökməsi və təslim olması xalqımızın tarixi zəfəridir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə sürətlə bərpa-quruculuq işləri aparılır. Ərazilərin minalardan təmizlənməsi prosesi həyata keçirilir, yeni yol infrastrukturu yaradılır. Elektrik enerjisi ilə təchizat məsələləri həll edilir, hava limanları tikilib istifadəyə verilir, Cənab Prezident İlham Əliyev tərəfindən bütün Qarabağ “yaşıl enerji” zonası elan edilib. Yaşayış məntəqələri “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyaları əsasında bərpa olunur. Artıq böyük qayıdışa start verilib və inanırıq ki, yaxın müddətdə bütün məcburi köçkünlər öz yurdlarına qayıdacaqlar.

Ötən müddət ərzində YAP-nın qurultaylarında qəbul edilən tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynamışdır. Bu mənada Yeni Azərbaycan Partiyasının VII qurultayı da ölkəmizin ictimai-siyasi həyatında çox mühüm və əlamətdar hadisə kimi yadda qalmışdır.